UOT: 342.951

**Məlik ƏLƏKBƏRLİ**
*DİN-in Polis Akademiyası "DİO-nun inzibati fəaliyyəti" kafedrasının müəllimi, polis baş leytenantı*
*e-mail: elekberlimelik1999@gmail.com*
DOI: https://doi.org/https://doi.org/10.62130/YVUW5544

# AİLƏ-MƏİŞƏT ZƏMİNİNDƏ TÖRƏDİLƏN HÜQUQPOZMALARIN DAXİLİ İŞLƏR ORQANLARI TƏRƏFİNDƏN QARŞISININ ALINMASINA DAİR PROBLEMLƏR

**XÜLASƏ**

*Məqalədə məişət zorakılığı tədqiq olunur. Müəllif bu məqsədlə müxtəlif mənbələrin təhlilinə çalışmışdır. Diqqət edilir ki, zorakılıq mahiyyətcə təhlükəli vəziyyətdir. Müəllif zorakılığın profilaktikası üçün müəyyən təkliflər irəli sürür.*
***Açar sözlər:*** *qanunvericilik, ailə, məişət zorakılığı, cinayət, məişət zorakılığının qarşısının alınması.*

Qanunvericiliyə görə ailə və nikah münasibətlərinin, qadınların və uşaqların hüquqlarının təmin olunması kimi məsuliyyətli bir işin ağırlığını dövlət öz üzərinə götürmüşdür. Təsadüfi deyildir ki, ölkəmizin Əsas Qanunu olan Konstitusiyanın 17-ci maddəsi "Ailə, uşaqlar və dövlət" adlanır və bu maddəyə görə, "cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir" [1, s.8]. Sosial dövlət olmaq etibarilə ailələrin, qadınların və uşaqların rifah halının yaxşılaşdırılmasına dövlətimiz xüsusi diqqət yetirir və qayğı göstərir.

Məlum olduğu kimi, hər bir fərdin şəxsi hüquqları onun azadlığının hər hansı bir qanunsuz müdaxilədən hüquqi müdafiəsini təmin etməyə yönəlmişdir. Qeyd edək ki, "Polis haqqında" Azərbaycan Respublikası Qanununun ikinci fəsli məzmun baxımından sahəvi vəzifə və hüquqları özündə ehtiva edir. Daha dəqiq desək, adı çəkilən Qanunda polis əməkdaşının bir sıra ümumi vəzifələri müəyyən olunmuşdur:

- baş verə biləcək cinayət və ya digər hüquqazidd əməllərin qarşısının alınması üçün zəruri tədbirlər görmək;

- hüquqpozmalar törətmiş şəxslərin yaxalanması və məsuliyyətə cəlb edilməsi üçün tədbirlər görmək;

- cinayətin törədildiyi yerin kənar təsirlərdən mühafizəsini təşkil etmək və şahidlər dairəsini müəyyənləşdirmək üçün tədbirlər görmək;

- cinayət və digər hüquqazidd əməllərdən, o cümlədən bədbəxt hadisədən zərərçəkmişlərə, köməksiz vəziyyətdə olan, həyatı və sağlamlığı üçün təhlükəli vəziyyətə düşən şəxsə kömək və ilk tibbi yardımın göstərilməsini təmin etmək.

Tədqiqatın məntiqi davamı olaraq qeyd etməliyik ki, qanunvericilik sosial sifariş nümunəsində polisin sadalanan vəzifələrini müvafiq sahələr üzrə daha detallı müəyyən etmişdir. Nəzərə almağımız vacibdir ki, qanunvericinin bu cür iradəsi həm də hüquqi təhlükəsizlik mühitinin formalaşmasına xidmət edir. Belə ki, "Polis haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsi "İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində polis əməkdaşının vəzifələri" və 15-ci maddəsi "Cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması sahəsində polis əməkdaşının vəzifələri" adlanır.

Bütün sivil cəmiyyətlərdə olduğu kimi, dövlətimizdə də aidiyyəti orqanlar vasitəsilə insanların həyatı və sağlamlığı hüquqazidd qəsdlərdən qorunur. Bəşər tarixinin təcrübəsi deməyə əsas verir ki, dövlətlərin imicində məhz bu kimi məqam sanki bir "reytinq meyarı" olaraq dəyərləndirilir. Təbii ki, hüquq-mühafizə orqanı olan polis öz təyinatına uyğun olaraq gündəlik bu vəzifələrini həyata keçirir. Qeyd edək ki, ölkəmiz üzrə, xüsusən onun ayrı-ayrı inzibati ərazi vahidlərində (o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində) rayon (şəhər) polis idarə və şöbələri tərəfindən bu fəaliyyət gündəlik və fasiləsiz olaraq təmin edilir.

Şəxsi hüquqlara və azadlıqlara kənardan hər hansı bir qeyri-qanuni müdaxilə və ya qəsd zorakılıq sayılır.

Hüquqi təbiəti deməyə əsas verir ki, zorakılıq vasitəsilə azadlıq məhdudlaşdırılır və insanın konstitusion hüquq və azadlıqlarına ziyan dəyir. Bu mənada ailədaxili zorakılıqlar da zorakılığın növlərindən biri kimi, ailə münasibətlərinə, qarşılıqlı hörmətə və diqqətə mənfi təsir göstərir. Son zamanlar artan məişət zorakılığı və ya ailədə zorakılıq halları yalnız bir ailənin deyil, hətta cəmiyyətin və dövlətin inkişafını əngəlləyəcək qədər təhlükəlidir. Məişət zorakılığına qarşı mübarizə bütün cəmiyyətlərdə olduqca mürəkkəb bir işdir. Azərbaycanda ailə münasibətlərinin bir çox tərəflərinin cəmiyyət üçün qapalı olması, digər tərəfdən ailəyə kənar müdaxilələrin bir çox hallarda problemi həll etməkdən çox onun dərinləşməsinə və ailənin dağılmasına gətirib çıxarması təhlükəsi bu sahədə mübarizəni aparmaq üçün xüsusi diqqət və yanaşma tələb edir. Ümumiyyətlə, ailə zorakılığının cəmiyyətə və dövlətə vurduğu ziyanın miqyası bütün mənalarda çox böyükdür. Buna görə də hər bir demokratik dövlətdə olduğu kimi, ölkəmizdə də ailədaxili zorakılığa qarşı sistemli, ardıcıl və qətiyyətli tədbirlər görülməkdədir.

Fundamental əsası Ümumilli Lider tərəfindən qoyulmuş, bu gün isə cənab Prezident İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi dövlət-ailə siyasəti ölkəmizdə prioritet strategiya kimi formalaşdırılmaqdadır. Ulu Öndər Heydər Əliyev heç bir Azərbaycan ailəsinin taleyinə laqeyd münasibət bəsləməmişdir. O, Azərbaycanda ailə ənənələrinin ləyaqətlə davam etdirilməsi üçün hər cür imkan və şərait yaratmış, bu işdə xalqa dəstəyini əsirgəməmişdir. Hakimiyyətdə olduğu dövrdə çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı, onların övladlarının təhsilinə diqqət göstərmişdir. Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Ulu Öndər hesab edirdi ki, ailənin hər bir üzvü öz öhdəliklərini məsuliyyətlə yerinə yetirməli, ailənin yüksək rifahı üçün əlindən gələni etməli, hamıya hörmət və qayğı göstərməli, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara tam əməl etməlidir. Çünki ailə cəmiyyətin əsas özəyidir. Ailə institutunun dayanıqlılığı cəmiyyətin və dövlətin güclənməsinə və tərəqqisinə gətirib çıxarır.

Ölkə başçısı, möhtərəm Prezident cənab İlham Əliyevin başçılığı ilə həyata keçirilən bu uğurlu siyasətin realizə olunması istiqamətində tədbirlərin həyata keçirilməsi aidiyyəti dövlət orqanlarının, ictimai qurumların fəaliyyətindən, o cümlədən daxili işlər orqanlarının fəaliyyətindən yan keçmir. Belə ki, polis vətəndaşlarla daha sıx qarşılıqlı əlaqədə olan hüquq-mühafizə orqanıdır və vətəndaşlar öz hüquq və azadlıqlarının bərpa olunması prosesində Azərbaycan polisinin fəaliyyətinə böyük etimad bəsləyir.

Nəzərə alaq ki, zorakılığın, xüsusən də məişət zorakılığının qarşısının alınması məqsədilə milli-hüquqi tənzimləmə mexanizmi ölkəmizdə artıq formalaşmışdır. Həmin mexanizm çərçivəsində 22 iyun 2010-cu il tarixli "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu "çərçivə sənəd" sayılır. Deyilənə əyani misal olaraq, həmin Qanunun 13-cü maddəsi ilə müəyyən edilən ailədaxili zorakılıq hallarının qarşısının alınmasına yönələn bir sıra tədbirlərin növlərini, həmçinin məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirləri göstərə bilərik. Adı çəkilən Qanunun 16-cı maddəsində məişət zorakılığı ilə bağlı profilaktik tədbirlərin məişət zorakılığının qarşısının alınmasına, ailələrdə normal münasibətlərin yaradılmasına, məişət zorakılığı hallarının və ondan yaranan mənfi hüquqi, tibbi və sosial nəticələrin aradan qaldırılmasına yönəldiyi qeyd edilərək bu

növ tədbirlərə aşağıdakılar aid edilmişdir:

- məişət zorakılığı əleyhinə maarifləndirmə işinin aparılması;

- məişət zorakılığı hallarının və onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin izah edilməsi;

- məişət zorakılığının qarşısının alınması üsullarının izah edilməsi;

- əhali arasında yüksək mədəniyyətə və qarşılıqlı hörmətə əsaslanan ailə münasibətlərinin təbliğ edilməsi;

- ümumi, peşə, orta ixtisas və ali təhsil pillələrində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla, qarşılıqlı hörmət, qarşılıqlı yardım, mübahisələrin qeyri-zorakı yollarla həlli, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzuların daxil edilməsi;

- məişət zorakılığına səbəb olan halların araşdırılması, təhlil edilməsi, onların qarşısının alınmasına yönəlmiş tövsiyələrin, proqramların hazırlanması, maarifləndirmə tədbirlərinin təşkili;

- məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması;

- məişət zorakılığına görə qanunvericiliklə müəyyən olunmuş məsuliyyətin izah edilməsi;

- məişət zorakılığı törətmiş şəxslərə belə halların təkrarlanmaması barədə xəbərdarlıq edilməsi;

- məişət zorakılığı ilə bağlı sorğuların keçirilməsi [6].

“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, məişət zorakılığı, qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qarşı qəsdən fiziki və ya mənəvi zərər vurması” kimi müəyyən olunur.

Təqdirəlayiq haldır ki, hüquqi tənzimləmə çərçivəsində məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlər sırasında hüquqi xarakterli tədbirlər, sosial xarakterli tədbirlər, qabaqlayıcı tədbirlər müəyyən olunmuşdur. Şübhəsiz ki, sadalanan tədbirlər sırasında həssas təzahürlər sırasına aid edilən ailə dəyərlərinin qorunması, insanın həyat və sağlamlığının mühafizə edilməsi üçün xüsusi önəmi olan qabaqlayıcı tədbirlərdir.

Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli Qanunu ilə təsdiq edilmiş İnzibati Xətalar Məcəlləsində, “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, “məişət zorakılığı” ilə bağlı əməllərə görə məsuliyyət nəzərdə tutan iki norma nəzərdə tutulmuşdur. İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsində nəzərdə tutulmuş döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

İnzibati Xətalar Məcəlləsinin 158-ci maddəsinə görə, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə yüz manatdan üç yüz manatadək məbləğdə cərimə nəzərdə tutulmuşdur. Adı çəkilən Məcəllənin 158.2-ci maddəsində isə məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə inzibati tənbeh növü müəyyən edilmişdir [5].

Ailə-məişət zəminində baş verən, müxtəlif səbəblərdən qaynaqlanan problemlərin və zorakılıq hallarının qarşısının alınmasında daxili işlər orqanlarının profilaktik fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Polis orqanları tərəfindən ölkənin qanunları və daxili işlər orqanlarının fəaliyyətini tənzimlə-

yən digər normativ hüquqi aktlar rəhbər tutularaq fiziki zorakılığın, o cümlədən qadınlara qarşı zorakılığın bütün formalarının qarşısının alınması, törədilmiş bu növ cinayətlərin açılması üzrə lazımi tədbirlər görülür. Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə bağlı Daxili İşlər Nazirliyinə və onun ərazi polis orqanlarına daxil olmuş müraciətlərin araşdırılmasına xüsusi həssaslıqla yanaşılır, münaqişəli ailələr uçota götürülərək onlar ətrafında aidiyyəti qurumlar da cəlb edilməklə qabaqlayıcı əməliyyat-profilaktik tədbirlər həyata keçirilir. Ailə-məişət zorakılığı zəminində baş verən hər bir cinayət faktı üzrə xidməti təhqiqat aparılaraq, ərazi polis orqanı əməkdaşının bu növ cinayətin qarşısının alınması üzrə gördüyü işlərə hüquqi qiymət verilir.

Daxili işlər orqanları ailə-məişət zəminində törədilən hüquqpozmaların xəbərdar edilməsi işinin təşkilini iki mərhələdə həyata keçirir:

- ailə-məişət zəminində törədilən hüquqpozmaların səbəb və şəraitinin müəyyən edilməsi və təhlili;

- ailə-məişət zəminində törədilən hüquqpozmaların səbəb və şəraitinin qarşısının alınmasına yönələn tədbirlərin müəyyən edilməsi və həyata keçirilməsi [3, s.80].

İstintaq və məhkəmə materiallarına əsaslanaraq ailə-məişət zəminində baş verən hüquqpozmaların əsas səbəbləri qismində daha çox ailə üzvlərinin əyyaşlığı (mütəmadi olaraq spirtli içkilər qəbul edərək birgəyaşayış qaydalarını pozmasını), tərəflərin xarakterləri, baxışları, adətləri və dünyagörüşləri arasındakı kəskin uyğunsuzluqları, maddi problemləri, fizioloji uyğunsuzluğu və s. göstərmək olar.

Daxili işlər orqanları ailə-məişət zəminində baş verə biləcək cinayətlərin qarşısının alınması üçün ərazi üzrə münaqişənin təkrar və mütəmadi hal aldığı ailələrdə profilaktik tədbirlər həyata keçirilməsi məqsədilə həmin ailələri profilaktik qeydiyyata götürür. Profilaktik qeydiyyata götürülməklə barələrində profilaktik yığım işləri açılmış ailələrlə polis əməkdaşları ən azı ayda bir dəfə görüşür, münaqişənin həlli istiqamətində zəruri tədbirlər görür və həmin ailələri mütəmadi olaraq nəzarətdə saxlayır.

Beləliklə, ailə-məişət zorakılığının profilaktikası üçün aşağıdakıları təklif edirik:

- inzibati sahələrdə profilaktik qeydiyyata götürülmüş münaqişəli ailələrdə münaqişələrin səbəb və şəraitinin dərindən araşdırılması, həmin səbəblərin aradan qaldırılmasına yönələn effektiv tədbirlərin həyata keçirilməsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aidiyyəti əməkdaşlarının, mütəxəssislərinin cəlb olunması istiqamətində tədbirlər görmək, Komitənin bu sahədəki mütəmadi fəaliyyəti ilə bağlı arayışlarını profilaktik yığım işlərinə əlavə etmək və dövlət orqanları arasında qarşılıqlı əlaqələri genişləndirmək;

- ən azı ayda bir dəfə münaqişəli ailələrlə keçirilən görüşlər zamanı xidmət sahəsindən asılı olmayaraq qadın polis əməkdaşlarının və təcrübəli kişi cinsindən olan polis əməkdaşlarının iştirakının ərazi polis orqanlarının rəisləri tərəfindən təmin edilməsi.

Hüquq ədəbiyyatlarında qeyd olunduğu kimi, bu kimi mövzularda mediada videoçarxların yayımlanmasını, eləcə də internet xəbər portallarında məqalələr yerləşdirilməsini təmin etmək; ailə-məişət zəminində törədilə biləcək cinayətlərin qarşısının alınması məqsədilə şəhər, rayon polis orqanları tərəfindən yerli icra hakimiyyəti, bələdiyyə, təhsil müəssisələrinin işçiləri, eləcə də müvafiq komissiya üzvləri ilə birgə əhali arasında, orta təhsil müəssisələrində görüşlər keçirmək, profilaktik mövzularda söhbətlər aparmaq; inzibati sahələrdə münaqişəli ailələrin və tərəflərin vaxtında müəyyən edilərək qeydiyyata götürmək, onlar ətrafında aparılan profilaktik tədbirlərin səmərəliliyinin artırılması üçün Hüquq Qaydasının Təmini üzrə İctimai Şuraların fəaliyyətini genişləndirmək, ictimai təhlükəsizlik xidməti ilə istintaq və təhqiqat xidmətləri arasında qarşılıqlı əlaqələrin gücləndirilməsinə diqqəti artırmaq müvafiq profilaktik tədbirlər sisteminə aid ola bilər [4, s 262].

**İstifadə edilmiş ədəbiyyat**:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq Yayın Evi, 2017.
2. V. Abışov, F. Mövsümov, V. Mansurov Daxili işlər orqanlarının inzibati fəaliyyəti. Xüsusi hissə. Dərs vəsaiti. Bakı, 2011.
3. Eyvazov H. Ailə-məişət zorakılığının profilaktikasının daxili işlər orqanları tərəfindən həyata keçirilməsi forma və metodları //"Ailə-məişət zorakılığının sosial-psixoloji, cinayət-hüquqi və kriminoloji problemləri". Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2016.
4. https://e-qanun.az/framework/46960
5. https://e-qanun.az/framework/20131

**Малик АЛАКБЕРЛИ**

## ПРОБЛЕМЫ ПРОФИЛАКТИКИ ПРАВОНАРУШЕНИЙ ДОМАШНЕГО НАСИЛИЯ В ДЕЯТЕЛЬНОСТИ ОРГАНОВ ВНУТРЕННИХ ДЕЛ

### РЕЗЮМЕ

В статье исследуется домашнее насилие. В связи с этим автор проанализировал ряд различных источников. Отмечается, что насилие по своей сути является опасной ситуацией. Автор вносит некоторые предложения по профилактике домашнего насилия.

***Ключевые слова:*** законодательство, семья, домашнее насилие, преступление, профилактика домашнего насилия.

**Malik ALAKBARLİ**

## PROBLEMS OF CRİME PREVENTİON OF DOMESTİC VİOLENCE İN THE ACTİVİTİES OF İNTERNAL AFFAİRS BODİES

### SUMMARY

The article examines domestic violence. In this regard, the author analyzed a number of different sources. It is noted that violence is inherently a dangerous situation. The author makes some suggestions for the prevention of domestic violence.

***Key words:*** legislation, family, domestic violence, crime, prevention of domestic violence.